Türküstan

6 – 12 iyun 2023-cü il




Eltun Türkel

# Yaşadan kitabda fraqmentlər

***Zamanın amansız tufanlarına sinə gərənlərdən biri də sözdür. Elə bir zamana gəlib çatmışıq ki, doğru sözü yaşatmaq insanı yaşatmaq qədər çətin olub. Ancaq etiraf edək ki, bütün çətinliklərdən, repressiyalardan qalib çıxıb, xalqın dilində kəlamlara çevrilmiş sözlər də yetərincədir. Bu sözlər gündəlik həyatımızda kifayət qədər istifadə olunaraq öz varlığını qorumağı bacarır. Misal üçün böyük şairimiz Ramiz Rövşənin 'Bu qatarın dalınca baxma" misrası özünə əbədilik statusu qazanaraq, hətta zamanımızın təsəlli aforizminə çevrilib. Ancaq həyat təsəlli yox, mübarizə meydanıdır. Təsəllilərə boyun əyib, taleyinlə barışanlar bu meydanın tamaşaçısı qismində yer alır. Əgər gedən qatarın yükü tarixdirsə, xatirələrdirsə onun arxasınca baxmaq yox, izinə düşüb geri qaytarmağa nail olmaq mütləqdir. Necə ki, Azərbaycanımızın ustad yazıçısı Qərib Mehdinin "xatirələr stansiyasından" illər əvvəl yola düşən qatarın gedişi ilə barışmayıb, arxasınca düşüb, nəhayət geri qaytarmağa müvəffəq oldu.***

Bəli, söhbət Qərib Mehdinin təzəcə işıq üzü görmüş "Xatırla ki, yaşayım" (Elm və təhsil nəşriyyatı, Bakı 2022) kitabından gedir. Etiraf edək ki, hal-hazırkı dövrdə mərhum şairimiz Cabir Novruzun "Sağlığında qiymət verin insanlara" misrasını ya unutmuşuq, ya da özümüzü aldadıb oxumamışıq kimi göstərib, sağ ikən insanlara dəyər-qiymət verməyi bacarmırıq. Elə isə ömrün payızında 50-ci dəfə ağ vərəq meydanını qələm-qılıncı ilə mürəkkəb qana boyamış, söz döyüşünün yorulmaz sərkərdəsi Qərib Mehdi bu kitabında dünyasını dəyişmiş bir çox qələm adamları, incəsənət xadimləri haqqında yazıb, onlara yeni nəfəs verməyi onun böyük yazıçı olmağıyla bərabər həm də böyük insan olmağının əyani sübutdur. Bir çoxlarımızın, bəlkə də, unutduğu simaları bu kitabda gördükdə düşünürəm ki, ilk məzəmmət hədəfi kimi özümüzü seçəcəyik. Axı zamanında bu müəllifin əsərlərinin pərəstişkarlar ordusunun müsəlləh əsgəri olmuşam, axı bu aktyorun obrazları ilə kövərlmişəm, sevinmişəm, axı bu müğənninin avazı ilə yuxuya gedib, bu aşığın zəngulısi ilə oynamışam. Dünyasını dəyişəndən sonra qələmi, obrazı, səsi dəyişdimi? Onu unutduran nə oldu? Yox, yox, dəyişən bizlərik, bu kitabsa dəyişkənlik sindromunun vaksinidir zənnimcə.

Qərib Mehdi qələmi, Qərib Mehdi dili və o dilin gözəlliyi, bədiiliyi hər oxucuya yaxşı məlumdur. Bu kitab mövzu rəngarəngliyini özündə ehtiva etsə də mənim diqqətimi çəkən ustad yazıçımızın dili və o dildə əbədilik qazanmış sözlər oldu. Sual yarana bilər ki, niyə məhz dili? Çünki bu dili mən qaranquş dimdiyinə bənzətdim. Necə ki, qaranquş dimdiyi çör-çöpdən öz yuvasını incəliklə qurub-yaradırsa Qərib Mehdi dili də sözlə o şəkildə incəliklə davranaraq ən adi ifadələrdən belə söz mülkü tikib-qurmağı bacarır.

Bədii əsərin adından məlum olduğu kimi nə qədər bədii çalarlarla bəzəsən bir o qədər oxunaqlı və yaddaqalan olur. Bəs publisistik yazı? Əsl söz ustası publisistik yazıya bədii libas tikən dərzidir desək yanılmarıq.

Şəhid şairimiz Nizami Aydın haqqında qələmə aldığı "Nizami Aydın-Səməndər quşu" xatirə yazısından:

"Bir daha geri qayıtmayacağını biləndə, səni Qarabağ müharibəsinə aparan yolun beli əyildi." Həmən əsərin davamında deyir:

***"Ölümün Qarabağ bölgəsində şair-şəhid xanasının yeri boş idi. Sənin Vətənə fəda olmağın onu yaman sevindirdi. Dərhal boş yerə "xal" yazmaqla şairlər xanasını sıfırdan xilas etdi."***

***Gəncəbasarımızın ustad aşığı Aşıq Mais haqqında qələmə aldığı xatirə əsərində işlətdiyi "Ağız ədəbiyyatımız ağız açandan bəri" ifadəsi Qərib Mehdi dilinin əvəzolunmazlığından xəbər verir.***

Bu kitab publisistik materiallar toplusudur. Burda mirvari düzümü kimi sətirlərə düzülən əsərlər publisistik yazı olsa da oxuduqda sanki mükəmməl bir bədii əsər oxuduğunu zənn edirsən. Yazının əvvəlində qeyd etdiyim aforizmləşmiş sözlər bu kitabın bədiyyə bağında payız meyvəsini xatırladır. Bunlardan bir neçəsini sitat gətirirəm.

Böyük yazıçımız Mirzə İbrahimov haqqında qələmə aldığı xatirə yazısında deyir:

"Göydəki Allaha pərəstiş əbədidir. Yerdəki "allahlara" pərəstiş isə vəzifə, hökm, və məqsəd qurtaranacandır."

Özünün dili ilə desək "Dərdin təqib etdiyi şair" Hüseyn Arifin haqqında yazdığı xatirə yazısında isə deyir:

"Dərd şair qəlbinin qəddar rəqibidir."

Gəray Fəzli xatirə yazısının ilk misrasına nəzər salaq:

"İnsan yaşından qocalmaz, insan başından qocalar."

Şair-dramaturq Fəridə xanım Əlyarbəyli haqqında qələmə aldığı "Bir də sarı gül" xatirə yazısında söz ustası deyir:

"Şöhrət adlı qənimət bölüşdürüləndə yaxındakılara daha çox çatır"

Belə aforizimsayağı sözlərdən kifayət qədər sitat gətirmək çox asandır. Kasıb o yazıçıdır ki, onun əsərlərində sitat gətiriləcək sözlər vaxtsız açan çiçəklər kimi şaxtaya məruz qalıb!




***Qərib Mehdi bu kitabı yazmaqla cəmiyyətimizə bir mesaj ötürdü. Mesajın mətni isə belədir:***

***Mən ahıl yaşımda dünyasını dəyişmiş insanları yaşatmağı bacarıramsa, ey gənc nəsil, yaşayanları yaşadın ki, yaşayasız...***

***<u>Müəllifdən:</u>*** *Əziz oxucu, mən "Xatırla ki, yaşayım" kitabından qısametrajlı fraqmentləri səhnələşdirməyə çalışdım. Bu əsərləri tam şəkildə oxuyub "xatirələr" adasında istirahət etmək istəyirsənsə bu bilet-kitabı əldə etməyə tələs!*